# Bu tarixi zəfərlə böyük xalq olduğumuzu dünyaya bir daha göstərdik



***Ermənistan 44 günlük müharibədən məğlub çıxdı. Bu işğalçı ölkə biabırcasına uduzaraq 30 ilə qədər işğal altında saxladığı Azərbaycan torpaqlarını geri, öz həqiqi sahibinə qaytarmağa məcbur oldu. Amma həmişə arxasında böyük güclərin dəstəyini görmüş, xüsusən "xristian təəssübkeşliyi"nə güvənərək, Azərbaycanın rayonlarını yerlə-yeksan etmiş bu terrorçu ölkə məğlubiyyətlə barışmaq istəmir. İstər Ermənistanın daxilindəki siyasi qüvvələr, istərsə də bəzi xarici ölkələr və bu ölkələrdəki erməni diaspor təşkilatları Azərbaycana qarşı təxribatları dayandırmaq fikrindən uzaq olsalar da, artıq Azərbaycan özünün tarixi qələbəsinin birinci ildönümünü qeyd etdi.***

Zəfər günündə mədəniyyət paytaxtımız Şuşada olan Azərbaycan Prezidenti İlham Əliyev burada hərbçilərlə görüşündə bəyan etdi ki, Zəfər Gününü Şuşada, Cıdır düzündə qeyd edir. Həmin gün bütün Azərbaycan bu şanlı bayramı böyük qürur hissi ilə qeyd etdi. 44 günlük Vətən müharibəsi nəticəsində Azərbaycan öz ərazi bütövlüyünü, bununla yanaşı, tarixi ədaləti bərpa etdi. Düşmən doğma torpaqlarımızdan qovuldu. 44 gün ərzində Azərbaycan Ermənistanın 30 il ərzində qurduğu bütün istehkamları, bütün döyüş mövqelərini, bütövlükdə Ermənistan ordusunu məhv edərək, tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza, təbii ki, Ali Baş Komandan və onun əmrlərini rəşadətlə icra edən Azərbaycan Silahlı Qüvvələri, on minlərlə hərbçimiz bəxş etdi.

Prezident görüş zamanı bəyan etdi ki, İkinci Qarabağ müharibəsi şanlı tariximizin parlaq səhifəsidir. Azərbaycan xalqı bütün gücünü səfərbər edib bu şanlı missiyanı yerinə yetirdi: "Mən işğal dövründə dəfələrlə deyirdim ki, hər bir Azərbaycan vətəndaşı bu müqəddəs günü öz işi ilə, öz əməli ilə yaxınlaşdırmalıdır. Mən demişdim ki, heç vaxt Azərbaycan xalqı işğalla barışmayacaq və biz işğala son qoymaq üçün bütün gücümüzü səfərbər edib bir nöqtəyə vuraraq düşməni tarixi torpaqlarımızdan qovduq".

Azərbaycan lideri ermənilərin öz orduları haqqında yaratdıqları mifin də darmadağın edildiyini bildirdi. Ermənistan işğal dövründə öz ordusu haqqında belə bir mif uydurmuşdu: "yenilməz Ermənistan ordusu". Prezident rişxəndlə dedi ki, bəs hanı bu yenilməz Ermənistan ordusu? Dövlət başçısı xüsusilə vurğuladı: "Pərən-pərən oldu, biz bunları cəmi 44 gün ərzində pərən-pərən saldıq. İmdad diləmişdilər, diz çökmüşdülər. Bizim şərtlərimizi qəbul edərək, noyabrın 9-dan 10-na keçən gecə kapitulyasiya aktını imzalayaraq bizim qabağımızda ağ bayraq qaldırdılar. Biz bütün dünyaya göstərdik ki, kim kimdir. Bütün dünyaya göstərdik ki, biz böyük xalqıq. Xalqımızın böyüklüyünü müharibə dövründə və müharibədən sonrakı bir il ərzində göstərdik. Ermənilər bütün şəhərlərimizi yerlə-yeksan etdilər. Bu yerlərə səfər edən Azərbaycan vətəndaşları, xarici vətəndaşlar gedirlər, məəttəl qalırlar, dəhşətə gəlirlər ki, bu dərəcədə vandallıq ola bilərmi? Bu dərəcədə nifrət ola bilərmi? Bu dərəcədə barbarlıq ola bilərmi? Bunu işğal dövründə ermənilər törədiblər. Bütün binaları sökərək, talayaraq, hətta qəbir daşlarını Ermənistana apararaq bu vəhşiliyi törətdilər. Biz isə müharibə dövründə müharibə qanunlarına riayət etdik, müharibə qanunlarını pozmadıq, özümüzü ləyaqətlə apardıq, necə ki, həyatda və siyasətdə özümüzü ləyaqətlə aparırıq".

Zəfər Günü, təbii ki, Azərbaycan xalqının haqq etdiyi əziz bayramdır. Bu, Zəfər bayramıdır, bu, rəşadət bayramıdır, bu, ədalət bayramıdır, bu, milli qürur, milli ləyaqət bayramıdır. Azərbaycan xalqı bu zəfər nəticəsində öz ləyaqətini bərpa etdi və bundan sonra müzəffər ölkə, qalib xalq kimi əbədi yaşayacaq. Bundan sonra biz Qarabağda və Zəngəzurda əbədi yaşayacaq, tikib-yaradacaq, əkib-biçəcəyik. Prezident İlham Əliyevin dediyi kimi, əgər bundan sonra Ermənistanda hər hansı bir qüvvə bizə xor baxsa, hansısa revanşist meyillərə əl atsa, bizim yumruğumuz görəcəkdir. Bizim yumruğumuz yerindədir.

***Əziz ƏLƏKBƏRLİ,***
***Milli Məclisin deputatı***

Xalq qəzeti.- 2021.- 12 noyabr.- S.3.